

# Bir şəhid ailənin tarixçəsi

**_Teymur ƏHMƏDOV_**

**(əvvəli ötən saylarımızda)**

**Elə güman edirdim ki, Akademiyanı qurtaracaqsan, evlənəcəksən, mən nəvələrimi bəsləyəcəyəm. Axı, mən öz oğlumla fəxr edirdim, o, adi uşaq olsa da, mənim iftixarım idi. Dəhşətdir...".**

Gülsüm xanım başını qaldırıb Nəriman Nərimanovun portretində onun qayğılı, kədərli baxışını gördü: fikrinə gəldi ki, Nəriman Nərimanov sağ olsaydı ötkəm səslə deyərdi: "Gülsüm, özünü üzmə, ağlama. Nəcəfin ruhu yaşayır, onu incitmə".

Gülsüm ananın vəziyyəti "təlatümlü cəmiyyət "dənizində" qayıqda tək qalan insanı xatırladırdı. Lakin o, müdrik, mübariz, möhkəm iradəli qadın idi. Nəriman Nərimanovun və Nəcəfin ruhu, onu əhatə edən qayğıkeş insanlar Gülsüm ananı sınmağa qoymadılar.

Kreml həkimlərinin ciddi səyi, qayğısı ilə birtəhər özünə gələn Gülsüm ana yataq xəstəsi olsa da, tək balasının faciəsi sorağında oldu. O, ilk məktubunu çox çətinliklə Nəcəfin cəbhə dostu Nikolay Sazanova yazdı: "Doğma oğlumun həlak olduğunu xəbər verdiyiniz məktubu aldım. Bu zərbə məni əzdi. Əgər yaşayıramsa, yalnız ona görə ki, ətrafımda milyonlarla ananın mənim vəziyyətimdə olduğunu görəndə ölməyə haqqım yoxdur".

## Ana öz məktubunda

***Nikolay Sazanovdan Nəcəfin başına gələn müsibətin təfsilatını öyrənmək istəyirdi: cəbhə həyatı, döyüş epizodları, düşüncələri, fikri və arzuları, hər şey onu maraqlandırırdı. "Əziz Kolya, ola bilər ki, ayrı yoldaşlar da onun haqqında bir söz desin. Siz başa düşürsünüzmü, oğlum haqqında deyilən hər nə varsa hamısı mənim üçün necə əzizdir? Nəcəf özü barədə çox az danışırdı... Şəxsi dərdim ağırdı. Ancaq dərk edirəm ki, Vətənin mənafeyi hər şeydən üstündür, gərək bütün qüvvəmizi düşmən üzərində qələbəyə həsr edək. Bildiyimiz kimi, ağır xəstələnmişəm, yaza bilmirəm. Ona görə qısa məktubla Sizə müraciət edirəm. Oğlumu unutmayın, onun ölümü haqqında hər şeyi, nə öyrənə bilərsinizsə hamısını ətraflı yazıb göndərin: o harada dəfn olunub, kimlər iştirak edib, onun məktubu və bir sənədi qalıbmı? Nəcəfi son anda görən varsa, soyadını, ünvanını öyrənin. Əgər mümkünsə onlardan xahiş edin, oğlum barəsində gördüklərini mənə yazsınlar...".***

Gülsüm xanım baş vermiş hadisənin təfsilatını öyrənmək məqsədilə Tank korpusunun komandanı general-leytenant K.V.Sviridova da qısa məktubla müraciətində Nəcəfin məzarının qorunması barədə göstəriş verməsini, məzarın şəklini, dəfn olunduğu yerin ünvanını, əşyalarını (qeyd dəftərini, məktubları və s.) oğlunun təltifi barədə məlumatı göndərməsini xahiş edir.

Haşiyə: Tank korpusunun komandanı, general-leytenant K.V.Sviridov xüsusi hərbi poçt kuryeri ilə Gülsüm anaya Nəcəf Nərimanovun "Stalinqrad uğrunda" medalını, "I dərəcəli Böyük Vətən müharibəsi" ordenini və əşyalarını göndərmiş, öz imzası ilə rəsmi məktubunda yazmışdı: "Hörmətli Gülsüm Nərimanova. Sizin oğlunuz Nəcəf Stalinqrad vuruşmasında faşistlərə ilk güclü zərbə endirən hissədə xidmət etmişdir. Biz əmri yerinə yetirdik - almanları qovduq. Zərbəmizdən sonra Stalinqrad yaxınlığında Qızıl Ordunun ümumi geniş hücumu başlandı. Biz düşməni kənddən-kəndə, şəhərdən-şəhərə qovurduq... Vətənimizin ən yaxşı və ləyaqətli oğulları arasında sizin də oğlunuz vardı... İllər keçəcək, biz itkilərin ağrısını unudacaq, xarabazarları bərpa edəcəyik, lakin bəşəriyyəti faşizm təhlükəsindən xilas etmək üçün özlərinin həyatını Nəcəf kimi qurban vermiş Vətən oğullarını heç bir vaxt yaddan çıxarmayacağıq".

Böhranlı, ağır günlərdə Gülsüm xanım tək-tənha qalmadı: Dost-tanış, qohumlar ona mənəvi dayaq oldular.

Hər gün poçtalyon teleqram və məktublar gətirirdi. Qonaq otağında Nəcəfin hərbi geyimdə qara çərçivəyə alınmış fotoşəkli təzə-tər gül-çiçəyə qərq olmuşdu. Gülsüm xanım orada dəst-dəst yığılmış məktub və teleqramları hər gün gözdən keçirir, qovluqlara yığırdı. Səhhəti yaxşılaşmaqda olan Gülsüm xanımın həyəcanla, göz yaşı ilə oxuduğu təsəllivərici "başsağlıqları" onu həyata səsləyir, mənəvi dayaq olur, möhkəm və mübariz olmağı aşılayırdı. Gülsüm xanıma baş çəkən qohum-qonşu və yaxınlar da onun özünə gəlməsinə, sağlamlaşmasına çalışırdı.

Gülsüm xanım Bakıda və Tbilisidəki qohumlarına yazırdı: "Mən özüm başa düşdüm ki, yeganə çıxış yolu canını, qanını Vətənin müdafiəsinə Nəcəf kimi qurban verənlərə qayğı və nəvaziş göstərməkdir. Təəssüf ki, indi xəstəyəm. Amma sağalan kimi bu dəhşətli dərd üz verənədək işlədiyim hərbi xəstəxanaya gedəcəyəm".

## Kreml xəstəxanasının həkimləri

son müayinədən sonra işə çıxmasına icazə verdilər. Həmin axşam Gülsüm xanım Nəriman Nərimanovun iş otağında Tank korpus komandanı general-leytenant K.V.Sviridova məktub yazıb oğlu Nəcəfin məzarının səliqə-sahmana salınması, abidə qoyulması barədə müraciət edir.

Gülsüm xanım ertəsi günü hərbi xəstəxanada onu gözləyən rəfiqəsi Asya Kurskaya ilə görüşür. Onlar döyüş meydanından göndərilən, ağır yaralı döyüşçülərin qayğısına qalır, ağrı-acılarını yüngülləşdirmək, dərdlərinə şərik olmaq üçün bacardıqlarını əsirgəmirdilər: yaralılara konsertlər, ədəbi-bədii gecələr; komediya tamaşaları, incəsənət xadimləri, tanınmış yazıçılarla görüşlər təşkil edirdilər.

Gülsüm xanım və Asya Kurskaya hamilik xidmətinə görə Moskva Şəhər Səhiyyə Şöbəsinin, Hərbi xəstəxana komandanlığının təşəkkür və fərmanlarına layiq görülmüşdülər.

## Gülsüm xanım

**Nərimanova Moskva Şəhər Qırmızı Xaç Komitəsi hamilik komissiyasının üzvü idi. Eyni zamanda Moskva Uşaq Evi Qəyyumluq Şurasının sədri vəzifəsində çalışırdı.**

İkinci Dünya müharibəsini qələbə ilə başa çatdıran ölkədə qıtlıq və çətinliklər hökm sürürdü. Bu dövrdə uşaq bağçaları, uşaq evləri, internat məktəbləri bərbad vəziyyətdə idi. Gülsüm xanım qəyyumluq etdiyi bütün yerlərdə qayda-qanun yaratmaq üçün səhərdən-axşama dövlət idarə rəhbərləri ilə əlbəyaxa idi. O, tabeliyində olan uşaq evlərini, yetimxanaları təmir etmək üçün inşaat materialları, ərzaq, geyim əşyaları, yeməkxana üçün qab-qacaq və binaları qızdırmaq üçün yanacaqla təmin edirdi. Gülsüm xanım ömrünü bu xeyirxah işə həsr edirdi. O, böyük hörmət və nüfuz sahibi idi. Səlahiyyəti çərçivəsində çox iş görürdü.

Gülsüm xanım həmsöhbəti, yaxın rəfiqəsi, Daşkənddən ardı-arası kəsilmədən ona məktub göndərən Yadviqa Edmundovna Dzerjinskayaya yazırdı:

"Bu hərb günlərində Moskva bir qədər sərt, işgüzar görünür. Moskva xüsusi cazibədarlığını və əzəmətini saxlayır. Ədəbi və ictimai işə girişmişəm. Oçerklər, məqalələr yazıram. Sovet qadınları antifaşist təşkilatının daimi üzvlərindən biri olmuşam.

Bu hadisə çox qəribədir. Uşaq evinə və məşhur Rusakov xəstəxanasına getmişdim. Uşaqların hitlerçilərdən müdafiə olunmasına həsr edilmiş antifaşist mitinqində həmin xəstəxana haqqında danışıldı. Məndən orada gördüklərim barədə yazmağı xahiş etdilər. Uşaqların vəziyyəti və onlara göstərilən qayğı mənə o qədər böyük təsir etmişdir ki, bu haqda ətraflı yazdım. "Rusakov xəstəxanasında" məqaləsini və İngiltərənin qadınlarına müraciəti xarici dillərə tərcümə edib radio ilə verdilər. Bütün bunlar həyatımı zənginləşdirir. Gördüyüm işdən razıyam".

## Bu qayğılar

içərisində yaşasa da, Gülsüm xanımı bir an tərk etməyən, həmişə düşündürən Nəcəfin tək məzarı, onun vəziyyəti idi. Bu barədə müəyyən məlumatı olsa da, ana xəyalı pərvanə kimi Nəcəfin məzarı üstündə dolanırdı.

Gülsüm Nərimanovanı Volnovaxa Rayon İcraiyyə Komitəsinin işçiləri hörmətlə qarşıladılar. Onu rayon mərkəzindəki parka - Qardaş məzarlığına apardılar. Ukrayna torpağının alman-faşist işğalından azad edilməsi uğrunda şəhid olan Sovetlər Birliyi xalqlarının döyüşçüləri burada dəfn olunmuşdular.

**Gülsüm xanım "Qardaş qəbiristanlığı"nda - məzarların üzərində təzə-tər gül-çiçək, hər tərəfdə səliqə-sahman, qayğı nişanəsi gördü. Məzarlığa baş əydi, göz yaşı yanaqlarını islatdı.**

**Nəcəf Nərimanovun məzarı qarşısında bir an dayandı, diz çökdü, sinə daşını qucaqlayıb hönkür-hönkür ağladı: Ana hıçqırıqla ürəyindən qopan sözlərlə oğlunu oxşayırdı. Onu müşayiət edən Volnovaxa Rayon İcraiyyə Komitəsinin məsul işçisi Yevdokiya İliniçna ona yaxınlaşıb ayağa qaldırdı, qucaqladı, xoş sözlərlə təsəlli verdi, pərişan saçlarını səliqəyə saldı, öpdü.**

Gülsüm xanım Volnovaxa yaxınlığındakı Staro-İqnatevka kəndindəki Uşaq Evinə də baş çəkdi. Burada müharibədə valideynlərini itirmiş uşaqlar yaşayırdılar. Yetimxanada binanın təmirə, uşaqların geyimə, ayaqqabıya ehtiyacı vardı, dəftərxana ləvazimatı, mütaliə üçün bədii ədəbiyyat, dərslik çatışmırdı. Bu acınacaqlı vəziyyət Gülsüm xanımı narahat etdi.

Gülsüm xanım Volnovaxa rayon mərkəzindən uzaqda yerləşən Staro-İqnatevka kəndində meşəlikdə mənzərəli bir yerdə tikilmiş ikimərtəbəli Uşaq evinin rəsmi himayəçiliyini öz öhdəsinə götürdü. Moskvaya qayıdan Gülsüm xanım uşaq evinin təmiri, maddi təminat problemi (ərzaq, yanacaq, paltar, ayaqqabı), maşın alınması ilə ciddi məşğul oldu. İlk növbədə Uşaq evinə "Nəcəf Nərimanovun kitabxanası"nı hədiyyə göndərdi. Bu hadisə böyük sevinclə qarşılandı. Kitabxanada kitab rəflərinin girişində vurulmuş lövhədə Gülsüm Nərimanovanın uşaqlara müraciəti yazılmışdı:

"Nəcəf Nərimanovun, sizin kitabxananıza göndərdiyim kitablarına görə sevindiyinizi eşidəndə mən də fərəhləndim. Kitab bilik mənbəyidir, insanın ən böyük və ən sadiq dostudur. Həyatınızda baş verən bütün hadisələr zamanı kitabdan istifadə etməyi öyrənin. Siz kitabdan bilik, müdriklik qazanacaq, həmişə vətənə sədaqətlə xidmət edəcəksiniz".

Uşaq Evi kitabxanasının genişləndirilməsi təkcə Volnovaxa rayonunda deyil, bütün vilayətdə əks-səda doğurmuşdu. Uşaq evində yaşayan uşaqlar Gülsüm xanıma cavab məktubunda yazırdılar:

**"...Əziz hədiyyəni - oğlunuz Nəcəf Nərimanovun kitabxanasından göndərdiyiniz kitabları aldıq. Diqqətinizə görə çox sağ olun. Hədiyyənizə cavab olaraq dərslərdən həmişə "dörd" və "beş" alacağımıza söz veririk. Bir nəfər də dərsdən geri qalmayacaqdır. Kitabxanamız daha da zənginləşdi. Fəxr edirik ki, orada oğlunuzun oxuduğu kitablar da vardır. Söz veririk ki, Nəcəf kimi olacağıq, Vətəni onun kimi sevəcəyik, bir-birimizə hörmət edəcək, namuslu, igid adamlar kimi böyüyəcəyik".**

Staro-İqnatevka Uşaq Evi Gülsüm xanımın qayğısı sayəsində vilayətdə ən nümunəvi tərbiyə ocağına çevrilmişdi. Uşaq Evinin məktəbliləri Volnovaxadakı "Qardaş qəbiristanlığı"nda iməciliyi ənənəyə çevirmişdilər. Nəcəf Nərimanovun məzarı üstündə həmişə təzə-tər gül-çiçək olurdu.

Volnovaxa İcraiyyə Komitəsindən Yevdokiya İliniçna Gülsüm xanıma göndərdiyi məktubunda Nəcəf Nərimanovun məzarının qaydaya salındığını, əklillər qoyulduğunu xəbər verir, sonda yazır: "Nəcəf Nərimanov qəlbimizdə yaşayır, onun qəhrəmanlığı unudulmayacaqdır. Volnovaxanın ən yaraşıqlı, geniş küçələrindən biri Nəcəf Nərimanovun adını daşıyır".

***Haşiyə: On il ötmüşdü... 1953-cü ildə Ukraynanın sərt dekabrında çovğunlu bir gündə Qvardiya baş texnik leytenantı Nəcəf Nərimanovun məzarı önündə 23 yaşlı, ucaboylu, başı açıq, əynində plaş bir gənc əlində tutduğu vərəqi təngnəfəs oxuyurdu... Bu, Nəriman Nərimanovun 1925-ci ildə 6 yaşlı oğlu Nəcəfə yazdığı vəsiyyətin əlyazması idi. Qadağalar dövründə gənc tədqiqatçı aspirant Vəli Məmmədov Bakı şəhərindən Volnovaxaya gəlib "Qardaşlıq qəbristanlığı"nda şəhid həmyerlisini ziyarət edirdi".***

***

Taleyin dönüklüyü, həyatın sərtliyi və amansızlığı Gülsüm xanımı sındıra bilməmişdi. O, müqəddəs ideallar: vətənin və xalqın azadlığı, müstəqilliyi uğrunda mübarizədə şəhid olan ərinin və oğlu Nəcəfin ruhunu öz qəlbində iftixarla yaşadırdı.

Gülsüm xanım Nəriman Nərimanovun şəxsi arxivini sahmana salır, Nəcəfin məktublarını və şəkillərini, rəsmi məktubları ayrıca qovluqlara yığırdı. Gülsüm xanım N.Nərimanovun şəxsi arxivindən bir neçə qovluğu Azərbaycan Dövlət Muzeyinin ədəbiyyat və incəsənət arxivinə göndərmişdi.

Gülsüm xanım Moskva şəhərində qəyyumluq etdiyi uşaq evlərində müharibə dövründə ata-anasını itirmiş, sahibsiz qalmış yetimlərin maddi-rifah halının yaxşılaşdırılması, sağlamlığı, təlim-tərbiyəsi məsələlərinə nəzarət edir, çatışmayan hər nə varsa, onun gətirilməsini təşkil edirdi.

Gülsüm xanım səlahiyyəti və nüfuzu çərçivəsində gördüyü xeyirxahlıq işləri onu məmnun edirdi. Uşaq evlərində ona ülfət bağlamış körpələr öz tədbirlərində Gülsüm xanımın iştirak etməsinə çalışırdılar. Gülsüm xanımın şəxsi arxivində saxlanılan yüzlərlə dəvətnamə də fikrimizi təsdiq edir.

Gülsüm xanımın hərdənbir xəstələnməsi işin ahəngdar ritmini pozmuşdu, ona elə gəlirdi ki, fiziki gücü tükənir. Jurnalistik fəaliyyəti ilə məşğul olmurdu: Ümumittifaq radiosunda çıxışını dayandırmışdı. Mərkəzi mətbuatda ədəbi-publisist yazılarla çıxış etmirdi. Amma hərdənbir uşaq evlərinin vəziyyəti, işin təşkili və görüləcək işlər haqqında məqalələri dərc olunurdu. Böhranlı vəziyyətdən çıxmağın bir yolu vardı: müalicə və pəhriz.

Maddi cəhətdən çətinlik çəkən Gülsüm xanım Mərkəzi İcraiyyə İdarəsinə müraciət etməyə məcbur olur: O, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Şvernikə müraciətində 1919-cu ildən V.İ.Leninin sərəncamı ilə N.Nərimanovun ailəsinə Xalq Komissarları Sovetinin yeməkxanasından və poliklinikasından istifadə etməsinin bərpa edilməsini xahiş edir.

## Arxiv sənədlərindən məlum olur ki,

N.Nərimanovun vəfatından sonra 1925-ci ilin yayında Gülsüm xanım və altı yaşlı oğlu Xalq Komissarları Sovetinin yeməkxanası və poliklinikası uçotundan çıxarılmışlar. SSRİ Mərkəzi İcraiyyə Komitəsi dörd il ötəndən sonra - 1928-ci il oktyabrın 28-də N.Nərimanovun himayəsiz qalmış ailəsinə təqaüd verilməsi barədə qərar çıxarmışdı.

Gülsüm xanım 1943-cü ildən sonra qıtlıq illəri oğlunun köməyindən də məhrum olmuşdu. Hipertoniya, əsəb pozğunluğu, mədə-ürək xəstəliklərinə düçar olan Gülsüm xanım "çox ağır maddi çətinlik şəraitində" yaşayırdı. O, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Şvernikə müraciətinin axırında yazırdı: İlk dəfə olaraq köməklik məqsədilə Sizə müraciət edirəm.

**Əgər mümkünsə mənə maddi yardım göstərin və Kremlin yeməkxanasından, hansı ki, 19-cu ildən aldığım yardımı bərpa edin. Həkimlər mənim şəhərdənkənar yerdə yaşamağımı məsləhət görürlər. Heç olmasa Moskva ətrafında pulu dövlət hesabına ödənilən 6 kvadratmetrlik bir otaq verin ki, yayda orada olum... Mənə belə yüksək təzyiqlə yayda şəhərdə yaşamaq çox çətindir...**

Mən ərimin ölümündən sonra onun bütün qiymətli şeylərini muzeyə bağışlamışam. Oğlumun da bütün şeylərini və kitablarını uşaq evinə vermişəm.

Mənə belə bir sualla sizə müraciət etmək ayıbdır. Məni bağışlayın, Sizə dərin hörmətlə Nərimanova".

Gülsüm ərinin vəfatından sonra 18 il oğlu Nəcəfə, həm də ata əvəzi olmuşdu: ağıllı-kamallı bir igid böyütmüşdü.

Ömrünü oğlu Nəcəfin boya-başa çatmasına qurban verən Gülsüm ana tək qalmışdı: ümidi, pənahı Nəcəf Nəcəfov 24 yaşında müharibədə şəhid olmuşdu. Qəriblikdə əbədiyyətə qovuşan oğlu Nəcəfin xiffətini çəkirdi, onun ayrılığına ana ürəyi dözmürdü. Gözünün işığı, ümid çırağı sönmüşdü. On il mübarizə apardı, Nəcəfin qəbirüstünün düzəldilməsinin nigarançılığını çəkdi. 1952-ci il mayın 1-də Volnovaxa rayon soveti qəbrin düzəldilməsi xəbərini verdi.

1953-cü ildə Gülsüm ana əbədiyyətə qovuşdu. Moskvada Voqankova qəbirstanlığında dəfn olundu.

**Vətəndən çox-çox uzaqlarda, qəriblikdə Odlar Yurdunun üç müqəddəs şəhidi torpağa tapşırılsa da, qədirbilən xalqımız onları unutmur, əziz xatirələrini ürəklərində yaşadır. Allah onlara qəni-qəni rəhmət eləsin!**

Ədalət.- 2020.- 3 mart.- S.5.